Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın icrası üzrə Təhsil Nazirliyinin 2015-ci il üçün Tədbirlər Planının 2.1.1.2 bəndindən (aidiyyəti struktur bölmələrlə birlikdə müsabiqə mexanizmlərinin proqram təminatlarının, portalların yaradılması) irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5 bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Hər il təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində “Müəllim” və “Şagird” istiqamətləri üzrə “Elektron Təhsil” Respublika müsabiqəsi keçirilsin.

2. “Elektron Təhsil” Respublika müsabiqəsi haqqında “Əsasnamə” (bundan sonra- Əsasnamə) və müsabiqənin Təşkilat Komitəsinin tərkibi təsdiq edilsin (1, 2 saylı əlavələr).

3. Təşkilat Komitəsi müsabiqənin keçirilmə vaxtını, mərhələlərin müəyyən edilməsini və Əsasnamədə nəzərdə tutulmuş digər tədbirlərin həyata keçirilməsini təmin etsin.

4. Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (S.Məmmədov) Əsasnamədə nəzərdə tutulmuş tədbirlərin vaxtında həyata keçirilməsini təmin etsin.

5. “Elektron Təhsil” Respublika müsabiqəsinin keçirilməsi ilə bağlı 2015-ci il üçün xərclər smetası təsdiq edilsin (3 saylı əlavə).

6. İnformasiya şöbəsi (E.Əliyev) müsabiqə ilə bağlı məlumatların “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin İnternet saytında yerləşdirilməsini təmin etsin.

7. Əmrin icrasına nəzarət nazir müavini C. Bayramova həvalə edilsin.

Əsas: Nazir müavini C. Bayramovun 04 avqust 2015-ci il tarixli, 4241(t) nömrəli məktubu.

**Əlavə:**

“Elektron Təhsil” Respublika müsabiqəsi haqqında Əsasnamə

“Elektron Təhsil” Respublika müsabiqəsinin Təşkilat Komitəsinin tərkibi

“Elektron Təhsil” Respublika müsabiqəsində iştirak üçün Ərizə forması

“Elektron Təhsil” Respublika müsabiqəsinə “Müəllim” istiqaməti üzrə təqdim edilən işlərin nominasiyalar üzrə qiymətləndirmə meyarları

“Elektron Təhsil” Respublika müsabiqəsinə “Şagird” istiqaməti üzrə təqdim edilən işlərin nominasiyalar üzrə qiymətləndirmə meyarları